# ZƏVVARIN
# cib kitabı

Toplayan və tərtib edən:

**Əlixan Musayev**

Redaktorlar:

**M. N. Qarayev**
**A. X. Salehli**

Bu kitab Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
razılığı ilə çap edilmişdir.

**(DK-430/B 27.09.2011)**

# Kitabın içindəkilər

*Müqəddimə*...4
*Həcc və ümrənin ədəbləri*...6
*Həcc və ümrənin fəziləti*...9
*Həcc və ümrənin vacibliyi*...12
*Həccin növləri*...14
*Ümrə ziyarəti*...17
*Həcc ziyarəti*...24
*Mədinədə Peyğəmbər ﷺ məscidini ziyarət etmək*...29
*Diqqət ediləsi bəzi məsələlər*...33
*Qurandan seçilmiş dualar*...36
*Hədislərdən seçilmiş dualar*...56
*Səfər duası*...90
*Cənazə namazı*...93

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

## Müqəddimə

Şübhəsiz ki, həmd Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, o, doğru yolda olar, kimi də azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, təkdir, şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Muhəmmədə, onun ailəsinə, onun əshabələrinə və Qiyamət gününədək gözəl tərzdə onların ardınca gedənlərə Allahın salavatı və salamı olsun!

Qüdrət və qüvvət sahibi olan Allaha Onun gözəl adları və uca sifətləri ilə yalvarıram ki, bu işimi Kəramətli Üzü xatirinə olan xalis əməllərdən etsin, həyatımda və ölümümdən sonra onunla mənə, habelə onu oxuyan, nəşr edən və yayılmasına köməklik göstərən hər kəsə fayda versin. Şübhəsiz ki, pak və müqəddəs Allah buna qadirdir.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, onun əshabələrinə və Qiyamət gününədək gözəl tərzdə onların ardınca gedənlərə Allahın salavatı və salamı olsun!

# Həcc və ümrənin ədəbləri

Həcc və ya ümrə ziyarətini yerinə yetirmək istəyən hər bir müsəlman aşağıda qeyd olunanlara diqqət etməlidir:

**1)** Ziyarəti ixlasla – Allahın rizasını qazanmaq üçün etməlidir.

Bu xüsusda Uca Allah buyurur:

﴿ قُلۡ إِنِّيٓ أُمِرۡتُ أَنۡ أَعۡبُدَ ٱللَّهَ مُخۡلِصٗا لَّهُ ٱلدِّينَ ﴾

**«De: “Mənə, dini yalnız Allaha məxsus edərək, Ona ibadət etmək əmr olunmuşdur”».**[1]

**2)** Ziyarətini mötəbər mənbələrə və səhih dəlillərə əsaslanaraq doğru-düzgün şəkildə yerinə yetirməlidir.

**3)** Səfərə çıxdıqda özünə layiqli dostlar seçməli və Allahdan qorxan möminlərlə oturub-durmalıdır.

---

[1] "əz-Zumər" surəsi, 11.

Peyğəmbər ﷺ demişdir: **"Yaxşı dostla pis dostun məsəli ətir satanla körük vuranın məsəlinə bənzəyir – ətir satana gəlincə, ya o sənə ətir bağışlar, ya sən ondan ətir alarsan, ya da ondan gözəl iy gəldiyini duyarsan. Körük vurana gəldikdə isə, ya o sənin paltarını yandırar, ya da ondan pis iy gəldiyini duyarsan".**[1]

**4)** Özü ilə ehtiyaclarını ödəyəcək qədər pul götürməlidir.

Bu xüsusda Uca Allah buyurur:

﴿وَتَزَوَّدُوا۟﴾

**«*Özünüzlə* azuqə götürün!»**[2]

**5)** Yanındakılarla gözəl əxlaqla rəftar etməlidir.

Bu xüsusda Uca Allah buyurur:

﴿ٱلْحَجُّ أَشْهُرٌ مَّعْلُومَـٰتٌ ۚ فَمَن فَرَضَ فِيهِنَّ ٱلْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِى ٱلْحَجِّ ۗ﴾

[1] "Səhih əl-Buxari", 5534.

[2] "əl-Bəqərə" surəsi, 197.

**«Həcc *ziyarəti* məlum olan aylardadır. Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc *ziyarəti* əsnasında *qadınıyla* yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır».**[1]

**6)** Ziyarət əsnasında yalnız dua və zikr etməklə məşğul olmalıdır.

Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun".**[2]

**7)** Başqalarına əziyyət verməməlidir.

Peyğəmbər ﷺ demişdir: **"Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin".**[3]

**8)** Məsciddə camaatla namaz qılmağa riayət etməlidir.

Peyğəmbər ﷺ demişdir: **"Camaat namazı fərdi namazdan iyirmi yeddi dərəcə üstündür".**[4]

---

[1] "əl-Bəqərə" surəsi, 197.

[2] "Səhih əl-Buxari", 6018.

[3] "Səhih əl-Buxari", 10.

[4] "Səhih əl-Buxari", 645.

# Həcc və ümrənin fəziləti

Peyğəmbərimizdən ﷺ həcc və ümrə ziyarətlərinin fəzilətinə dair onlarla hədis rəvayət edilmişdir. Gəlin bunlardan bəzisinə nəzər salaq:

– Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **“Ümrə ziyarəti, növbəti ümrəyədək arada olan *kiçik günahlar üçün* kəffarədir [1]. Qəbul olunmuş həccin mükafatı isə ancaq Cənnətdir”.[2]**

– Möminlərin anası Aişə رضي الله عنها demişdir: “(Bir dəfə mən): “Ey Allahın Elçisi! Biz cihadın ən əfzəl əməllərdən olduğunu güman edirik. Elə isə biz də cihadda iştirak edə bilərikmi?”– deyə soruşdum.

---

[1] Günahların bağışlanılması üçün şəriətin buyurduğu qaydada verilən cəza, yaxud deyilən söz və ya verilən sədəqə.

[2] “Səhih əl-Buxari”, 1773.

Peyğəmbər ﷺ dedi: **“Xeyr! [Siz qadınlar üçün] ən əfzəl cihad qəbul olunmuş həcdir!”**[1]

– Əbu Hureyra رضي الله عنه demişdir: “Peyğəmbərdən ﷺ soruşdular: “Hansı əməl ən yaxşı əməl sayılır?” Dedi: **“Allaha və Onun elçisinə iman gətirmək”.** Soruşdular: “Bəs sonra hansıdır?” Dedi: **“Allah yolunda cihad etmək”.** [Yenə] soruşdular: “Bəs sonra hansıdır?” Dedi: **“Qəbul olunmuş həcc”.**[2]

– Əbu Hureyra رضي الله عنه demişdir: “Mən Allahın Elçisinin ﷺ belə buyurduğunu eşitmişəm: **“Kim Allah xatirinə həcc ziyarətini yerinə yetirsə,** [ziyarət əsnasında] **qadını ilə yaxınlıq etməsə və** [digər] **günah işlərdən çəkinsə, dünyaya gəldiyi gündə olduğu kimi** [pak halda evinə] **qayıdar”.**[3]

[1] “Səhih əl-Buxari”, 1520.

[2] “Səhih əl-Buxari”, 26.

[3] “Səhih əl-Buxari”, 1521.

– Peyğəmbər ﷺ Amr ibn Asa belə demişdir: **"Məgər bilmirsən ki, İslam özündən əvvəlki günahları yox edir?!** [1] [Bilmirsən] **ki, hicrət özündən əvvəlki günahları yox edir?! Bilmirsən ki, həcc ziyarəti özündən əvvəlki günahları yox edir?!"** [2]

---

[1] Uca Allah buyurur: **"Kafir olanlara de ki, əgər *küfrə* son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər *küfrə* qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər"** ("əl-Ənfal" surəsi, 38).

[2] "Səhih Muslim", 321.

## Həcc və ümrənin vacibliyi

Həcc və ümrə ziyarəti ağlı başında olan, həddi-büluğa çatmış, azad və bu ziyarəti yerinə yetirmək iqtidarında olan hər bir müsəlmana vacibdir.

Uca Allah buyurur:

﴿وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ۚ وَمَن كَفَرَ فَإِنَّ ٱللَّهَ غَنِىٌّ عَنِ ٱلْعَٰلَمِينَ﴾

**“*Müqəddəs* Evi ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin Allah qarşısında borcudur. Kim *bunu* inkar edərsə, *bilsin ki,* Allahın aləmlərə ehtiyacı yoxdur”.**[1]

Peyğəmbər ﷺ də bu xüsusda belə buyurmuşdur: **“İslam beş *əsas* üzərində qurulmuşdur: Allahdan başqa *ibadətə***

[1] “Ali-İmran” surəsi, 97.

***haqqı olan*** **məbud olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq".**[1]

[1] "Səhih əl-Buxari", 8.

# Həccin növləri

Hər bir müsəlman həcc və ümrə ziyarətlərini Peyğəmbərin ﷺ etdiyi kimi yerinə yetirməlidir ki, bunun sayəsində Allahın sevgisini qazansın və Onun mərhəmətinə qovuşsun. Bu barədə Uca Allah buyurur:

﴿ قُلْ إِن كُنتُمْ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِي يُحْبِبْكُمُ ٱللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴾

**«De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”».**[1]

Həccin üç növü vardır: **Təməttu**, **Qiran** və **İfrad**. Bunların ən məşhuru və ən fəzilətlisi Təməttu həccidir ki, zəvvarların

[1] “Ali-İmran” surəsi, 31.

əksəriyyəti məhz onu yerinə yetirirlər. Allahın Elçisi ﷺ də bunu öz səhabələrinə buyurmuş, hətta özü də təmənna edib demişdir ki: **“Əgər indi mənə agah olanları əvvəlcədən bilsəydim, özümlə qurban gətirməzdim. Yanımda qurbanlıq heyvan olmasaydı, ihramdan[1] çıxardım”.**[2]

**Təməttu həcci**ni niyyət edən zəvvar həcc aylarında[3] əvvəlcə ümrə ziyarətini niyyət edib onu yerinə yetirməli, sonra ihramdan çıxmalı və nəhayət zilhiccənin səkkizi həcc ziyarətini niyyət edib ihrama girməlidir.

**Qiran həcci**ni niyyət edən zəvvar həcc aylarında həccə və ümrəyə niyyət edib əvvəlcə ümrə ziyarətini yerinə yetirməli,

---

[1] İhrama girmək – həcc və ya ümrə ziyarətini niyyət etmək və ziyarət əsnasında qadağan edilmiş əməllərdən çəkinmək.

[2] “Səhih əl-Buxari”, 1651.

[3] Həcc ayları – Şəvval, Zilqədə və Zilhiccə.

sonra ihramdan çıxmadan zilhiccə ayınadək gözləməli və nəhayət, zilhiccənin səkkizindən başlayıb həcc ziyarətini yerinə yetirməlidir. Təməttu ilə Qiran arasındakı fərq ondadır ki, Qiranı yerinə yetirən zəvvar niyyət etdiyi vaxtdan bayram gününədək ihramdan çıxmamalıdır. Habelə qurbanlıq heyvanını da özü ilə gətirmiş olmalıdır.

**İfrad həcci**ni niyyət edən zəvvar isə yalnız həcc üçün niyyət etməli və bayram gününədək ihramdan çıxmamalıdır. Bununla həccin əvvəlki növləri arasındakı fərq ondadır ki, İfradı yerinə yetirən zəvvar ümrə ziyarətini etməməlidir.

# Ümrə ziyarəti

Əziz müsəlman! Ümrə ziyarətini yerinə yetirmək istəyirsənsə:

**1)** İmkan daxilində cənabət qüslü kimi qüsl et[1], sonra ihram libasını geyin. [Qadınların libası isə nə cəlbedici, nə də açıq-saçıq olmayan istənilən paltar ola bilər].

Sonra de: لَبَّيْكَ عُمْرَةً

[Ləbbeykə umratən]

"Ümrə ziyarətini yerinə yetirmək üçün hüzurundayam!"

Ardınca bu duanı oxu:

((لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ إِنَّ الْحَمْدَ وَالنِّعْمَةَ لَكَ وَالْمُلْكَ لاَ شَرِيكَ لَكَ))

[Ləbbeyk allahummə ləbbeyk, ləbbeykə lə şərikə ləkə ləbbeyk, innəl-həmdə van-ni'mətə ləkə val-mulk, lə şərikə lək]

[1] Yəni bu qüsl vacib yox, müstəhəbdir.

“Hüzurundayam, Allahım, hüzurundayam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd Sənədir, nemət və mülk Sənə məxsusdur, Sənin şərikin yoxdur!”

** Bu duanın Məkkəyə çatanadək təkrar-təkrar, həm də uca səslə oxunması bəyənilən əməllərdəndir.*

**2)** Məkkəyə gəlib çatdıqda Allahın evini təvaf et. “Bismilləh, vallahu əkbər” deyib qara daşın tuşundan təvafa başla və həmin yerə qayıdanadək Kəbənin başına dolan. Hər dövrədə qara daşın tuşuna çatdıqda "bismilləh, vallahu əkbər" de. Yalnız yeddinci dövrədə, yəni təvafı tamamladıqda bunu demək lazım deyil.

Habelə, təvaf etdikcə hər dövrədə Yəmən küncü[1] ilə qara daşın arasında bu duanı demək müstəhəbdir:

---

[1] Bu, Kəbənin qara daşdan solda yerləşən küncüdür. Başqa cür desək, təvaf əsnasında qara daşdan əvvəl gələn küncdür.

﴿ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ ﴾

[Rabbənə atinə fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar]

**"Ey Rəbbimiz! Bizə dünyada da, axirətdə də gözəl *nemətlər* bəxş et və bizi Cəhənnəm əzabından qoru!"**

Habelə, təvaf edərkən istədiyin duanı oxuya bilərsən.

Təvafı tamamladıqdan sonra İbrahim məqamının arxasında və ya ora yaxın bir yerdə, imkan olmasa, bir qədər aralıda iki rükət namaz qıl. Bu namazın birinci rükətində "əl-Kafirun", ikinci rükətində isə "əl-İxlas" surələrini oxumaq müstəhəbdir.

## əl-Kafirun surəsi

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿ قُلۡ يَٰٓأَيُّهَا ٱلۡكَٰفِرُونَ ١ لَآ أَعۡبُدُ مَا تَعۡبُدُونَ ٢

وَلَآ أَنتُمۡ عَٰبِدُونَ مَآ أَعۡبُدُ ﴿٣﴾ وَلَآ أَنَا۠ عَابِدٞ مَّا عَبَدتُّمۡ ﴿٤﴾
وَلَآ أَنتُمۡ عَٰبِدُونَ مَآ أَعۡبُدُ ﴿٥﴾ لَكُمۡ دِينُكُمۡ وَلِيَ دِينِ ﴿٦﴾

[Bismilləhir-Rahmənir-Rahim. Qul yəə eyyuhəl-kəfirun! Lə ə'budu mə tə'budun. Va lə əntum abidunə mə ə'bud. Va lə ənə abidun mə abədtum. Va lə əntum abidunə mə ə'bud. Ləkum dinukum va liyə din]

**Mərhəmətli, Rəhmli Allahın adı ilə! «De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!"»**

## əl-İxlas surəsi

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ ﴿١﴾ ٱللَّهُ ٱلصَّمَدُ ﴿٢﴾ لَمۡ يَلِدۡ
وَلَمۡ يُولَدۡ ﴿٣﴾ وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدُۢ ﴿٤﴾

[Bismilləhir-Rahmənir-Rahim. Qul huva-llahu əhəd. Allahus-saməd. Ləm yəlid va ləm yuləd. Va ləm yəkul-ləhu kufuvan əhəd]

**Mərhəmətli, Rəhmli Allahın adı ilə! «De: "O Allah Təkdir! Allah** ***heç kəsə, heç nəyə*** **Möhtac deyildir** ***əksinə, hər bir məxluq Ona möhtacdır*****. O, nə doğub, nə də doğulubdur. Və Onun heç bir tayı-bərabəri də yoxdur!"»**

**3)** Namazı bitirdikdən sonra Səfa və Mərvə dağları[1] arasında yeddi dəfə səy et – Səfadan başlayıb Mərvədə tamamla. Səfa dağına yaxınlaşdıqda de:

﴿إِنَّ ٱلصَّفَا وَٱلْمَرْوَةَ مِن شَعَآئِرِ ٱللَّهِ﴾

(( أَبْدَأُ بِمَا بَدَأَ اللَّهُ بِهِ ))

[İnnəs-safə val-mərvatə min şəairi-lləh. Əbdəu bimə bədə Allahu bih]

[1] Məscidül-həramın şərq hissəsində yerləşən dağlar, daha dəqiq desək, təpələr.

“**Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir!** Allah nə ilə başlamışsa, mən də onunla başlayıram!”

Sonra Səfanın üstünə qalxıb üzünü Kəbəyə tərəf tutub: “Lə iləhə illəllah, Allahu Əkbər” [Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur, Allah ən böyükdür!] de və bu duanı üç dəfə oxu:

(( لاَ إِلَـهَ إِلاَّ اللهُ وَحْـدَهُ لاَ شَـرِيكَ لَـهُ، لَـهُ الْمُلْـكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ، أَنْجَزَ وَعْـدَهُ، وَنَـصَرَ عَبْـدَهُ، وَهَـزَمَ الأَحْـزَابَ وَحْدَهُ ))

[Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul-mulku va ləhul-həmdu va huva alə kulli şeyin qadir. Lə iləhə illəllahu vahdəhu, əncəzə va'dəhu va nəsara abdəhu va həzəməl-əhzəbə vahdəh]

“Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur

və həmd Onadır! O hər şeyə Qadirdir. Allahdan başqa məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və *düşmənlərdən olan* dəstələri tək Özü məğlub etdi!”

Bu dualar arasında istədiyin duanı edə bilərsən.

Mərvə dağına qalxdıqda da bu duanı oxumağın müstəhəbdir. Həmçinin, səy əsnasında başqa dualar da oxuya bilərsən. Səy əsnasında yaşıl işıqlarla nişanlanmış əlamətlər arasında qaçmağın da müstəhəbdir. [Qadınlara isə bunu etmək gərək deyildir].

**4)** Səyi bitirdikdən sonra saçını qısalt.

Bununla da ümrə ziyarətini tamamlamış olursan. Bundan sonra ihramdan çıxıb istədiyin libası geyinə bilərsən.

# Həcc ziyarəti

Əziz müsəlman!

Zilhiccə ayının 8-i səhər açıldıqda qaldığın yerdə imkan daxilində qüsl et, sonra:

**1)** İhram libasını[1] gey, sonra da həccə niyyət et və bu duanı oxu:

((لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ إِنَّ الْحَمْدَ وَالنِّعْمَةَ لَكَ وَالْمُلْكَ لاَ شَرِيكَ لَكَ))

[Ləbbeyk allahummə ləbbeyk, ləbbeykə lə şərikə ləkə ləbbeyk, innəl-həmdə van-ni'mətə ləkə val-mulk, lə şərikə lək]

---

[1] İhram libası izar və ridadan ibarətdir. İzar – qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanılan, rida isə çiyinə salınan örtükdür. Qeyd etmək lazımdır ki, bu, yalnız kişiyə vacibdir. Qadın isə əl və üzünü bağlamamaq şərtilə istədiyi libası geyə bilər.

**2)** Sonra Minaya[1] get və səhərədək orada qal. Bu zaman zöhr, əsr, məğrib, işa və sübh namazlarını qəsr etməklə[2], hər birini öz vaxtında qıl.

**3)** Zilhiccənin 9-u səhər açıldıqdan sonra Ərəfata[3] get və orada zöhr vaxtı zöhr və əsr namazlarını həm qəsr qıl, həm də cəm et[4]. Sonra günəş batanadək Ərəfatda qal. Bu vaxt ərzində üzü qibləyə olmaqla, çoxlu dua et.

**4)** Gün batan kimi Ərəfatdan çıx və Müzdəlifəyə[5] get, gecəni də orada qal. Orada məğrib və işa namazlarını həm qəsr qıl, həm də cəm et. (Sonra uzan, dincəl). Dan yeri söküldükdə sübh namazını qıl və gün çıxanadək dua et. Zəif olanlar[6] gecənin axırında Müzdəlifədən çıxa bilərlər.

---

[1] Mina – Məkkə yaxınlığındakı vadidir.

[2] Burada qəsr etmək dedikdə, dördrükətli namazları iki rükət qılmaq nəzərdə tutulur.

[3] Məkkədən 25 km aralıda yerləşən vahə.

[4] Yəni bir-birinin ardınca qıl.

[5] Ərəfat və Mina arasında yerləşən vadi.

[6] Yəni xəstə, yaşlı, qadın və körpələr.

**5)** Elə ki Müzdəlifədən çıxıb Minaya gəldin, aşağıda deyilənlərə əməl et:

a) Əqəbə sütununa, yəni Məkkəyə daha yaxın yerləşən böyük sütuna bir-birinin ardınca yeddi xırda daş at və hər bir daşı atdıqda "Allahu Əkbər!" de.

b) Sonra qurbanlıq heyvanını kəs[1] və ondan həm özün ye, həm də fəqir-füqəraya payla.

c) Sonra saçını dibindən qırx və ya qısalt. Lakin qırxmaq daha əfzəldir. Qadına isə saçının ucundan bir-iki barmaq qısaltmaq kifayətdir.

Yaxşı olar ki, əvvəl daşları atasan, sonra qurbanını kəsəsən, sonra da saçını qırxdırasan. Lakin məlumun olsun ki, bunlardan birini digərindən qabaq yerinə yetirmək də olar.

Bunların hər üçünü və ya ikisini yerinə yetirdikdən sonra ihramdan çıxa bilərsən. Yəni sənə ihramda qadağan

[1] Həcc ziyarəti əsnasında qurban kəsmək yalnız həccin təməttu və qiran növlərini yerinə yetirən kəslərə vacibdir.

edilmiş əməlləri etməyə icazə verilir. Yalnız qadınınla yaxınlıq eməkdən başqa.

**6)** Sonra Məkkəyə get və həcc təvafını yerinə yetir, [sonra İbrahim məqamı arxasında iki rükət namaz qıl], bundan sonra da Səfa və Mərvə dağları arasında səy et.

Beləliklə də, ihramdan tamamilə çıxmış olursan. Bundan sonra sənə öz qadınınla yaxınlıq etməyə də icazə verilir.

**7)** Təvafı və səyi etdikdən sonra Minaya qayıt və zilhiccənin on birinci və on ikinci günlərini, gecəni də Minada qalmaq şərtilə, orada qal.

**8)** Zilhiccənin on biri və on ikisi, gün zeniti keçdikdən (günortadan) sonra balacasından başlamaq şərtilə hər üç sütuna – əvvəl balaca, sonra orta, sonra da böyük sütuna – hər birinə yeddi daş at və hər daşı atdıqda "Allahu Əkbər!" de.

Birinci sütuna daşları atdıqdan sonra bir kənara çəkil və üzünü qibləyə tutub Allaha dua et. İkinci sütuna da daşları atdıqdan sonra yenə bir kənara çəkil və üzünü qibləyə tutub Allaha dua et.

Üçüncü sütuna daş atdıqdan sonra isə dua etməyə gərək yoxdur. Məlumun olsun ki, bu iki gündə günortadan əvvəl o üç sütuna daş atmaq caiz deyildir.

**9)** Əgər on ikinci gün daşları atdıqdan sonra Minadan çıxmaq istəyirsənsə, gün batanadək oradan çıxmalısan. Yox, əgər on üçüncü günü də Minada qalmaq istəyirsənsə, – bu isə daha əfzəldir, – onda gecəni orada qalmalı və ertəsi gün yenə günortadan sonra hər üç sütuna daş atıb Minadan çıxmalısan.

**10)** Bundan sonra nə zaman Məkkədən çıxmaq istəsən, səfərqabağı Kəbəni təvaf et[1]. Heyz[2] və nifas[3] görmüş qadınlara vida təvafını etmək vacib deyil.

---

[1] Buna "vida təvafı" da deyilir.

[2] Həddi-büluğa çatmış qızlarda, həmçinin qadınlarda hər ay uşaqlıqdan qan ifrazı halıdır. Buna adət, yaxud aybaşı da deyirlər.

[3] Doğuşdan sonra müəyyən vaxtadək uşaqlıqdan qan ifrazı halı.

## Mədinədə Peyğəmbər ﷺ məscidini ziyarət etmək

**1)** İstərsən həcdən əvvəl, istərsənsə də həcdən sonra Peyğəmbər ﷺ məscidini ziyarət et və orada namaz qılmaq məqsədilə Mədinəyə get. Belə ki, Peyğəmbər ﷺ məscidində qılınan bir namaz, Məscidül-həramda qılınan namaz istisna olmaqla, digər məscidlərdə qılınan namazdan min dəfə üstündür.

**2)** Məscidə gəlib çatdığın zaman iki rükət salam namazını və əgər iqamə verilibsə, fərz namazını qıl.

**3)** Sonra Peyğəmbərin ﷺ qəbrinin yanına gedib onun önündə dur və de:

(( السَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ،
صَلَّى اللهُ عَلَيْكَ وَجَزَاكَ عَنْ أُمَّتِكَ خَيْراً ))

[Əssələmu aleykə eyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuh. Sallallahu aleykə va cəzəkə an ummətikə xeyra]

“Sənə salam olsun, ey Peyğəmbər! Allahın rəhməti və bərəkəti sənə yetişsin! Sənə Allahın salavatı olsun və ümmətinə görə Allah səni xeyirlə mükafatlandırsın”.

Sonra bir və ya iki addım sağa çəkil ki, Əbu Bəkrin ﵁ qəbri önündə durasan və deyəsən:

((السَّلاَمُ عَلَيْكَ يَا أَبَا بَكْرٍ خَلِيفَةَ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ وَرَحْمَةُ اللهِ وَ بَرَكَاتُهُ، رَضِيَ اللهُ عنْكَ وَجَزَاكَ عَنْ أُمَّتِ مُحَمَّدٍ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ خَيْراً))

[Əssələmu aleykə yə Əba Bəkr, xalifətə Rasulilləhi sallallahu aleyhi va sélləmə va rahmətullahi va bərakətuh. Radıyallahu ankə va cəzəkə an umməti Muhəmmədin sallallahu aleyhi va səlləmə xeyra]

“Sənə salam olsun, ey Allahın Elçisinin ﷺ xəlifəsi Əbu Bəkr! Allahın rəhməti və bərəkəti sənə yetişssin! Allah səndən razı qalsın və Muhəmmədin ﷺ ümmətinə görə səni xeyirlə mükafatlandırsın.

Sonra yenə bir və ya iki addım sağa çəkil ki, Ömərin ؓ qəbri önündə durasan və deyəsən:

((السَّلاَمُ عَلَيْكَ يَا عُمَرَ أَمِيرَ المؤْمِنِينَ وَ رَحْمَةُ اللهِ وَ بَرَكَاتُهُ، رَضِيَ اللهُ عنْكَ وَ جَزَاكَ عَنْ أُمَّتِ مُحَمَّدٍ صَلَّى اللهُ عَلَيْهِ وَ سَلَّمَ خَيْراً))

[Əssələmu aleykə ya Umər, əmirəl-muminin va rahmətullahi va bərakətuh. Radıyallahu ankə va cəzəkə an umməti Muhəmmədin sallallahu aleyhi va səlləmə xeyra]

“Sənə salam olsun, ey möminlərin əmiri Ömər! Allahın rəhməti və bərəkəti sənə yetişssin! Allah səndən razı qalsın və Muhəmmədin ﷺ ümmətinə görə səni xeyirlə mükafatlandırsın”.

**4)** Sonra *səhabələrin dəfn olunduqları* Bəqi məzarlığına get və orada dəfn edilmiş cəmi müsəlmanlara belə salam ver:

(( السَّلاَمُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ، وَإِنَّا إِنْ شَاءَ اللهُ بِكُمْ لاَحِقُونَ [وَيَرْحَمُ اللهُ الْمُسْتَقْدِمِينَ مِنَّا وَالْمُسْتَأْخِرِينَ] أَسْأَلُ اللهَ لَنَا وَلَكُمُ الْعَافِيَةَ ))

[Əssələmu aleykum əhləd-diyəri minəl-mu'mininə val-muslimin va innə in şəə Allahu bikum ləhiqunə va yərhəmullahul-mustəqdiminə minnə val-mustə'xirinə. Əs'əlullahə lənə va ləkumul-afiyətə]

"Ey bu diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə, biz də sizə qovuşacağıq. Allah bizdən əvvəl gedənlərə və qalanlara rəhmət etsin! Allahdan özümüzə və sizə salamatlıq diləyirəm!"

**5)** Sonra Quba məscidinə get və orada namaz qıl.

**6)** Sonra Uhuda get, orada Həmzə ﵁ və onunla birlikdə şəhid olmuş səhabələrin qəbirlərini ziyarət et və onları salamla, onlar üçün Allahdan bağışlanma, rəhmət və Onun rizasını qazanmağı dilə.

## Diqqət ediləsi vacib məsələlər

Həcc və ümrə ziyarətlərini yerinə yetirmək istəyən kimsəyə aşağıdakılar vacibdir:

**1)** Allahın vacib buyurduğu əməlləri nizam-intizamla, vaxtlı-vaxtında, artırıb-əksiltmədən, doğru-düzgün yerinə yetirməlidir.

**2)** Allahın qadağan etdiyi işlərdən çəkinməlidir. Uca Allah buyurur: **“Həcc** *ziyarəti* **məlum olan aylardadır. Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc** *ziyarəti* **əsnasında** *qadınıyla*

**yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır".**[1]

**3)** Həcc və ümrə ziyarətləri əsnasında dili və əli ilə başqalarına əziyyət verməməlidir.

**4)** İhrama girdikdən sonra qadağan olunmuş əməllərdən çəkinməlidir. Qadağan olunanlar isə bunlardır:

a) Saçından[2] və dırnağından kəsməməlidir. Saçında və ya dırnağında ona əziyyət verən bir şeyi aradan qaldırmaq isə istisnadır.

b) İhrama girdikdən sonra nə bədəninə, nə də paltarına ətir vurmamalı, istifadə etdiyi qab-qaşığı ətirli maddələrlə (sabun və s.) yumamalıdır.

c) Ov etməməlidir. Yəni quruda yaşayan və ovlanması halal sayılan heyvanlardan ovlamamalıdır.

ç) Qadınına şəhvətlə toxunmamalı, onunla yaxınlıq etməməlidir.

---

[1] "əl-Bəqərə" surəsi, 197.

[2] Saqqal və bığ da buna aiddir.

d) Nə özü üçün, nə də başqası üçün nikaha girməməli, həmçinin nə özü üçün, nə də başqası üçün nişan aparmamalıdır.

e) Əlinə əlcək geyməməlidir.

Bütün bu deyilənlər həm kişiyə, həm də qadına aiddir.

Təkcə kişiyə qadağan olunanlar isə bunlardır:

a) Hər hansı bir örtüklə başını örtməməlidir. Çətir götürmək, çadırda oturmaq və ya başı üstə nə isə daşımaq caizdir.

b) Köynək, şalvar, əmmamə, corab, xuf və bunlara bənzər geyim geyməməlidir.

Eynək, üzük, kəmər və saat taxmaq, arxası açıq başmaq geymək və xurcun götürmək isə caizdir.

Qadın isə üzünü niqabla örtməməli, həcc ziyarəti əsnasında əlini və üzünü açıq saxlamalıdır.

# Qurandan seçilmiş dualar

﴿رَبَّنَا ظَلَمْنَآ أَنفُسَنَا وَإِن لَّمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ ٱلْخَٰسِرِينَ﴾

**[Rabbənə zaləmnə ənfusənə va in ləm təğfir lənə va tərhəmnə lənəkunənnə minəl-xasirin]**

“Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq”.[1]

﴿رَبِّ إِنِّيٓ أَعُوذُ بِكَ أَنْ أَسْـَٔلَكَ مَا لَيْسَ لِي بِهِۦ عِلْمٌۖ وَإِلَّا تَغْفِرْ لِي وَتَرْحَمْنِيٓ أَكُن مِّنَ ٱلْخَٰسِرِينَ﴾

**[Rabbi inni əuzu bikə ən əsələkə mə leysə li bihi ılmun va illə təğfir li va tərhəmni əkun minəl-xasirin]**

---

[1] “əl-Əraf” surəsi, 23.

“Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram.”[1]

﴿ رَّبِّ ٱغۡفِرۡ لِي وَلِوَٰلِدَيَّ وَلِمَن دَخَلَ بَيۡتِيَ مُؤۡمِنٗا وَلِلۡمُؤۡمِنِينَ وَٱلۡمُؤۡمِنَٰتِۖ وَلَا تَزِدِ ٱلظَّٰلِمِينَ إِلَّا تَبَارَۢا ﴾

**[Rabbi-ğfir li va livalideyyə va limən dəxələ beytiyə muminən va lil-mumininə val-muminət va lə təzidiz-zaliminə illə təbəra]**

“Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanı və *bütün* mömin kişiləri və qadınları bağışla! Zalımlara isə həlakdan başqa bir şey artırma!”[2]

﴿ رَبَّنَا تَقَبَّلۡ مِنَّآۖ إِنَّكَ أَنتَ ٱلسَّمِيعُ ٱلۡعَلِيمُ ﴾

---

[1] “Hud” surəsi, 47.

[2] “Nuh” surəsi, 28.

**[Rabbənə təqabbəl minnə, innəkə əntəs-səmiul-alim]**

“Ey Rəbbimiz! *Bunu* bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!”[1]

﴿وَتُبْ عَلَيْنَآ ۖ إِنَّكَ أَنتَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ﴾

**[Va tub aleynə, innəkə əntət-təvvabur-rahim]**

“Bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!”[2]

﴿رَبِّ ٱجْعَلْنِى مُقِيمَ ٱلصَّلَوٰةِ وَمِن ذُرِّيَّتِى ۚ رَبَّنَا وَتَقَبَّلْ دُعَآءِ﴾

**[Rabbi-c'alni muqıməs-saləti va min zurriyyəti. Rabbənə va təqabbəl duai]**

“Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə!”[3]

---

1 “əl-Bəqərə” surəsi, 127.

2 “əl-Bəqərə” surəsi, 128.

3 “İbrahim” surəsi, 40.

﴿ رَبَّنَا ٱغْفِرْ لِى وَلِوَٰلِدَىَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ ٱلْحِسَابُ ﴾

**[Rabbənə-ğfir li va livalideyyə va lil-muminինə yəumə yəqumul-hisəb]**

“Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!”[1]

﴿ رَبِّ هَبْ لِى حُكْمًا وَأَلْحِقْنِى بِٱلصَّٰلِحِينَ وَٱجْعَل لِّى لِسَانَ صِدْقٍ فِى ٱلْءَاخِرِينَ وَٱجْعَلْنِى مِن وَرَثَةِ جَنَّةِ ٱلنَّعِيمِ ﴾

**[Rabbi həb li hukmən va əlhiqni bis-salihin vac'al li lisənə sıdqın fil-əxirin vac'alni min varasəti cənnətin-nəim]**

“Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında *həmişə yad edilim deyə,* mənə yaxşı ad qismət elə! Məni Nəim bağının varislərindən et!”[2]

---

1 “İbrahim” surəsi, 41.

2 “əş-Şuəra” surəsi, 83-85.

﴿ فَاطِرَ السَّمَاوَاتِ وَالْأَرْضِ أَنْتَ وَلِيِّي فِي الدُّنْيَا وَالْآخِرَةِ تَوَفَّنِي مُسْلِمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ ﴾

**[Fətıras-səməvati val-ardı, əntə valiyyi fid-dunyə val-əxira, təvaffəni muslimən va əlhiqni bis-salihin]**

“Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman olduğum halda al və məni əməlisalehlərə qovuşdur!”[1]

﴿ رَبِّ هَبْ لِي مِنَ ٱلصَّٰلِحِينَ ﴾

**[Rabbi həb li minəs-salihin]**

“Ey Rəbbim! Mənə əməlisalehlərdən olan *övlad* bəxş et!”[2]

﴿ رَبَّنَا عَلَيْكَ تَوَكَّلْنَا وَإِلَيْكَ أَنَبْنَا وَإِلَيْكَ ٱلْمَصِيرُ ﴾

---

[1] “Yusuf” surəsi, 101.

[2] “əs-Saffat” surəsi, 100.

**[Rabbənə aleykə təvakkəlnə va ileykə ənəbnə va ileykəl-məsır]**

“Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir.”[1]

﴿ رَبَّنَا لَا تَجۡعَلۡنَا فِتۡنَةً لِّلَّذِينَ كَفَرُواْ وَٱغۡفِرۡ لَنَا رَبَّنَآۖ إِنَّكَ أَنتَ ٱلۡعَزِيزُ ٱلۡحَكِيمُ ﴾

**[Rabbənə lə təc'alnə fitnətən lilləzinə kəfəru vağfir lənə rabbənə. İnnəkə əntəl-azizul-həkim]**

“Ey Rəbbimiz! Bizi kafirlər üçün sınaq etmə. Ey Rəbbimiz, bizi bağışla! Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən!”[2]

﴿ رَبِّ أَوۡزِعۡنِيٓ أَنۡ أَشۡكُرَ نِعۡمَتَكَ ٱلَّتِيٓ أَنۡعَمۡتَ عَلَيَّ وَعَلَىٰ وَٰلِدَيَّ وَأَنۡ أَعۡمَلَ صَٰلِحٗا تَرۡضَىٰهُ وَأَدۡخِلۡنِي بِرَحۡمَتِكَ فِي عِبَادِكَ ٱلصَّٰلِحِينَ ﴾

---

[1] “əl-Mumtəhənə” surəsi, 4.

[2] “əl-Mumtəhənə” surəsi, 5.

**[Rabbi əuzi'ni ən əşkura ni'mətəkəlləti ən'amtə aleyyə va alə valideyyə va ən ə'mələ salihən tərdah va ədxilni birahmətikə fi ıbədikəs-salihin]**

“Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!”[1]

﴿ رَبِّ هَبْ لِي مِن لَّدُنكَ ذُرِّيَّةً طَيِّبَةً إِنَّكَ سَمِيعُ ٱلدُّعَآءِ ﴾

**[Rabbi həb li min lədunkə zurriyyətən tayyibə, innəkə səmiud-dua]**

“Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən”.[2]

﴿ رَبِّ لَا تَذَرْنِي فَرْدًا وَأَنتَ خَيْرُ ٱلْوَٰرِثِينَ ﴾

[1] “ən-Nəml” surəsi, 19.

[2] “Ali-İmran” surəsi, 38.

**[Rabbi lə təzərni fərdən va əntə xayrul-varisin]**

"Ey Rəbbim, məni tənha buraxma! Sən varislərin ən yaxşısısan!"[1]

﴿لَّآ إِلَـٰهَ إِلَّآ أَنتَ سُبۡحَـٰنَكَ إِنِّي كُنتُ مِنَ ٱلظَّـٰلِمِينَ﴾

**[Lə iləhə illə əntə subhənəkə inni kuntu minəz-zalimin]**

"Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!"[2]

﴿رَبِّ ٱشۡرَحۡ لِي صَدۡرِي وَيَسِّرۡ لِيٓ أَمۡرِي وَٱحۡلُلۡ عُقۡدَةٗ مِّن لِّسَانِي يَفۡقَهُواْ قَوۡلِي﴾

**[Rabbi-şrah li sadri va yəssir li əmri vahlul uqdətən min lisəni yəfqahu qauli]**

[1] "əl-Ənbiya" surəsi, 89.
[2] "əl-Ənbiya" surəsi, 87.

“Ey Rəbbim, köksümü açıb genışlət, işimi yüngülləşdir! Dilimdəki düyünü aç ki, sözümü anlasınlar!”[1]

﴿رَبِّ إِنِّي ظَلَمۡتُ نَفۡسِي فَٱغۡفِرۡ لِي﴾

**[Rabbi inni zaləmtu nəfsi fə-ğfir li]**

“Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!”[2]

﴿رَبَّنَآ ءَامَنَّا بِمَآ أَنزَلۡتَ وَٱتَّبَعۡنَا ٱلرَّسُولَ فَٱكۡتُبۡنَا مَعَ ٱلشَّٰهِدِينَ﴾

**[Rabbənə əəmənnə bimə ənzəltə vat-təbə'nər-rasulə fəktubnə məaş-şəhidin]**

“Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və *göndərdiyin* elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!”[3]

[1] “Ta ha” surəsi, 25-28.

[2] “əl-Qəsəs” surəsi, 16.

[3] “Ali İmran” surəsi, 53.

﴿رَبَّنَا لَا تَجۡعَلۡنَا فِتۡنَةٗ لِّلۡقَوۡمِ ٱلظَّٰلِمِينَ وَنَجِّنَا بِرَحۡمَتِكَ
مِنَ ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ﴾

**[Rabbənə lə təc'alnə fitnətən lil-qaumiz-zalimin va nəccinə birahmətikə minəl-qaumil-kəfirin]**

"Ey Rəbbimiz! Bizi zalım camaatın əlində sınağa çəkmə, və bizi Öz mərhəmətinlə kafir camaatın əlindən qurtar"[1]

﴿رَبَّنَا ٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَإِسۡرَافَنَا فِيٓ أَمۡرِنَا وَثَبِّتۡ أَقۡدَامَنَا
وَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ﴾

**[Rabbənə-ğfir lənə zunubənə va israfənə fi əmrinə va səbbit əqdəmənə vansurnə aləl-qaumil-kəfirin]**

"Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!"[2]

---

[1] "Yunus" surəsi, 85-86.

[2] "Ali İmran" surəsi, 147.

﴿رَبَّنَآ ءَاتِنَا مِن لَّدُنكَ رَحۡمَةٗ وَهَيِّئۡ لَنَا مِنۡ أَمۡرِنَا رَشَدٗا﴾

**[Rabbənə ətinə min lədunkə rahmətən va həyyi lənə min əmrinə raşədə]**

“Ey Rəbbimiz, bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!”[1]

﴿رَّبِّ زِدۡنِي عِلۡمٗا﴾

**[Rabbi zidni ılmən]**

“Ey Rəbbim, mənim elmimi artır!”[2]

﴿وَقُل رَّبِّ أَعُوذُ بِكَ مِنۡ هَمَزَٰتِ ٱلشَّيَٰطِينِ وَأَعُوذُ بِكَ
رَبِّ أَن يَحۡضُرُونِ﴾

**[Rabbi əuzu bikə min həməzətiş-şəyatın va əuzu bikə rabbi ən yəhdurun]**

“Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!”[3]

---

[1] “əl-Kəhf” surəsi, 10.

[2] “Ta ha” surəsi, 114.

[3] “əl-Muminun” surəsi, 97-98.

﴿رَّبِّ ٱغۡفِرۡ وَٱرۡحَمۡ وَأَنتَ خَيۡرُ ٱلرَّٰحِمِينَ﴾

**[Rabbi-ğfir varhəm va əntə xayrur-rahimin]**

"Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!"[1]

﴿رَبَّنَآ ءَاتِنَا فِي ٱلدُّنۡيَا حَسَنَةً وَفِي ٱلۡأٓخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ ٱلنَّارِ﴾

**[Rabbənə ətinə fid-dunyə həsənətən va fil əxirati həsənətən va qınə azəbən-nər]**

"Ey Rəbbimiz! Bizə həm *bu* dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi od əzabından qoru!"[2]

﴿سَمِعۡنَا وَأَطَعۡنَاۖ غُفۡرَانَكَ رَبَّنَا وَإِلَيۡكَ ٱلۡمَصِيرُ﴾

**[Səmi'nə va əta'nə ğufranəkə rabbənə va ileykəl-məsır]**

[1] "əl-Muminun" surəsi, 118.

[2] "əl-Bəqərə" surəsi, 201.

“Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!”[1]

﴿رَبَّنَا لَا تُؤَاخِذۡنَآ إِن نَّسِينَآ أَوۡ أَخۡطَأۡنَاۚ رَبَّنَا وَلَا تَحۡمِلۡ
عَلَيۡنَآ إِصۡرٗا كَمَا حَمَلۡتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِنَاۚ رَبَّنَا وَلَا
تُحَمِّلۡنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ وَٱعۡفُ عَنَّا وَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَآۚ
أَنتَ مَوۡلَىٰنَا فَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ﴾

**[Rabbənə lə tuəxiznə in nəsiynə əu əxta'nə rabbənə va lə təhmil aleynə isran kəmə haməltəhu aləl-ləzinə min qablinə rabbənə va lə tuhəmmilnə mə lə taqatə lənə bihi va'fu annə vağfir lənə varhəmnə əntə məulənə fənsurnə aləl-qaumil-kəfirin]**

“Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır

[1] “əl-Bəqərə” surəsi, 285.

yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayanı da bizə yükləmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir adamlara qələbə çalmaqda bizə yardım et!”[1]

﴿ رَبَّنَا لَا تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِن لَّدُنكَ رَحْمَةً إِنَّكَ أَنتَ الْوَهَّابُ ﴾

**[Rabbənə lə tuziğ qulubənə bə'də iz hədeytənə va həb lənə min lədunkə rahmətən innəkə əntəl-vahhəb]**

“Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən bəxş Edənsən.”[2]

﴿ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ أَخْزَيْتَهُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ

[1] “əl-Bəqərə” surəsi, 286.

[2] “Ali İmran” surəsi, 8.

رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي لِلۡإِيمَٰنِ أَنۡ ءَامِنُواْ بِرَبِّكُمۡ
فَـَٔامَنَّاۚ رَبَّنَا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَكَفِّرۡ عَنَّا سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا
مَعَ ٱلۡأَبۡرَارِ رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ وَلَا تُخۡزِنَا يَوۡمَ
ٱلۡقِيَٰمَةِۗ إِنَّكَ لَا تُخۡلِفُ ٱلۡمِيعَادَ

**[Rabbənə mə xaləqtə həzə bətılən subhənəkə fəqınə azəbən-nər. Rabbənə innəkə mən tudxilin-nəra fəqad əxzeytəhu va mə liz-zaliminə min ənsar. Rabbənə innənə səmi'nə munədiyən yunədi lil-iməni ən əminu birabbikum fə əmənnə. Rabbənə fəğfir lənə zunubənə va kəffir annə seyyiətinə va təvaffənə məal-əbrar. Rabbənə va ətinə mə va'adtənə alə rusulikə va lə tuxzinə yəuməl-qıyəməti. İnnəkə lə tuxliful-mi'ad]**

“Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən, bizi od əzabından qoru! Ey Rəbbimiz! Sən oda daxil etdiyin kəsi, şübhəsiz ki, rüsvay edərsən və zalımların köməkçiləri

olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!”– deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və Qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!”[1]

﴿رَبَّنَا ٱصْرِفْ عَنَّا عَذَابَ جَهَنَّمَ إِنَّ عَذَابَهَا كَانَ غَرَامًا
إِنَّهَا سَآءَتْ مُسْتَقَرًّا وَمُقَامًا﴾

**[Rabbənə-srıf annə azəbə cəhənnəmə innə azəbəhə kənə ğaramən innəhə sə'ət mustəqarran va muqamə]**

“Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir. Həqiqətən, o, nə pis məskən, necə də pis iqamətgahdır!”[2]

---

[1] “Ali İmran” surəsi, 191-194.

[2] “əl-Furqan” surəsi, 65-66.

﴿رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَٰجِنَا وَذُرِّيَّٰتِنَا قُرَّةَ أَعْيُنٍ
وَٱجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا﴾

**[Rabbənə həb lənə min əzvacinə va zurriyyətinə qurratə ə'yunin vac'alnə lil-muttəqınə iməmə]**

“Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!”[1]

﴿رَبَّنَا ٱغْفِرْ لَنَا وَلِإِخْوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلْإِيمَٰنِ وَلَا
تَجْعَلْ فِى قُلُوبِنَا غِلًّا لِّلَّذِينَ ءَامَنُوا۟ رَبَّنَآ إِنَّكَ رَءُوفٌ رَّحِيمٌ﴾

**[Rabbənə-ğfir lənə va li ixvaninəlləzinə səbəqunə bil-imən va lə təc'al fi qulubinə ğıllən lil-ləzinə əmənu. Rabbənə innəkə raufur-rahim]**

“Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı

[1] “əl-Furqan” surəsi, 74.

nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"[1]

﴿رَبَّنَآ أَتۡمِمۡ لَنَا نُورَنَا وَٱغۡفِرۡ لَنَآۖ إِنَّكَ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٞ﴾

**[Rabbənə ətmim lənə nuranə vağfir lənə innəkə alə kulli şeyin qadir]**

"Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"[2]

﴿رَبِّ ٱجۡعَلۡ هَٰذَا ٱلۡبَلَدَ ءَامِنٗا وَٱجۡنُبۡنِي وَبَنِيَّ أَن نَّعۡبُدَ ٱلۡأَصۡنَامَ﴾

**[Rabbi-c'al həzəl-bələdə əminən va-cnubni va bəniyyə ən nə'budəl-əsnəm]**

"Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq *yurdu* et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq sal".[3]

---

[1] "əl-Həşr" surəsi, 10.

[2] "ət-Təhrim" surəsi, 8.

[3] "İbrahim" surəsi, 35.

﴿رَبِّ إِنِّي لِمَآ أَنزَلۡتَ إِلَيَّ مِنۡ خَيۡرٖ فَقِيرٞ﴾

**[Rabbi inni limə ənzəltə ileyyə min xayrin fəqır]**

“Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyirə ehtiyacım var!”[1]

﴿رَبِّ ٱنصُرۡنِي عَلَى ٱلۡقَوۡمِ ٱلۡمُفۡسِدِينَ﴾

**[Rabbi-nsurni aləl-qaumil-mufsidin]**

“Ey Rəbbim! Fitnə-fəsad törədən qövmə qarşı mənə yardım et!”[2]

﴿حَسۡبِيَ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۖ عَلَيۡهِ تَوَكَّلۡتُۖ وَهُوَ رَبُّ ٱلۡعَرۡشِ ٱلۡعَظِيمِ﴾

**[Həsbiyəllahu lə iləhə illə huva aleyhi təvakkəltu va huva rabbul-arşil-azım]**

“Mənə Allah yetər. Ondan başqa ilah yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!”[3]

---

[1] “əl-Qəsəs” surəsi, 24.

[2] “əl-Ənkəbut” surəsi, 30.

[3] “ət-Tövbə” surəsi, 129.

﴿عَسَىٰ رَبِّيٓ أَن يَهۡدِيَنِي سَوَآءَ ٱلسَّبِيلِ﴾

**[Asə rabbi ən yəhdiyəni səvaəs-səbil]**

"Ola bilsin ki, Rəbbim mənə doğru yolu göstərsin!"[1]

---

[1] "əl-Qəsəs" surəsi, 22.

## Hədislərdən seçilmiş dualar

((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ فِتْنَةِ النَّارِ وَعَذَابِ النَّارِ وَفِتْنَةِ الْقَبْرِ وَعَذَابِ الْقَبْرِ وَشَرِّ فِتْنَةِ الْغِنَى وَشَرِّ فِتْنَةِ الْفَقْرِ اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ شَرِّ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ اللَّهُمَّ اغْسِلْ قَلْبِي بِمَاءِ الثَّلْجِ وَالْبَرَدِ وَنَقِّ قَلْبِي مِنْ الْخَطَايَا كَمَا نَقَّيْتَ الثَّوْبَ الأَبْيَضَ مِنْ الدَّنَسِ وَبَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ الْكَسَلِ وَالْمَأْثَمِ وَالْمَغْرَمِ))

